Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 13 saylı Əzizbəyov birinci seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizəd Hüseynov Nazim Hüseyn oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 183 və 323 saylı birgə müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 09 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 13 saylı Əzizbəyov birinci seçki dairəsi üzrə namizədliyi qeydə alınmış Hüseynov Nazim Hüseyn oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına 26 dekabr 2009-cu ildə daxil olmuş 183 və 323 saylı birgə müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən araşdırmaya qəbul edilmişdir.

26 dekabr 2009-cu il tarixdə namizəd Hüseynov Nazim Hüseyn oğlu və digərləri Mərkəzi Seçki Komissiyasına müraciət edərək 23 dekabr 2009-cu il tarixdə keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar, adıçəkilən bələdiyyə üzrə daha çox səs toplamış bələdiyyə üzvlüyünə namizədlərin əhali arasında tanınmaması və sakinlərin məlumatına istinadən həmin şəxslərin səs toplamalarının qeyri-mümkün olmasını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında mənim vəsatətim əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən qərar qəbul edilmişdir.

Araşdırma prosesində namizəd Hüseynov Nazim Hüseyn oğluna məxsus telefon vasitəsilə onunla əlaqə saxlanılmış və əlavə sübutlar təqdim etmək barədə hüquqları ona izah edilmişdir.

O, bildirmişdir ki, ərizədə göstərdiyi faktlardan başqa sübutlara malik deyildir.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır. Belə ki, 13 saylı Əzizbəyov birinci seçki dairəsi dairə seçki komissiyasının sədri M.S.Balaqardaşovun və digər komissiya üzvlərinin,

həmin seçki dairəsinin Mərdəkan bələdiyyəsini əhatə edən seçki məntəqələri məntəqə seçki komissiyası üzvlərinin, bələdiyyə üzvülüyünə seçilməmiş namizədlər Alim Məmmədov, Əbiş İsmayılov, həmçinin müvafiq seçki məntəqələrində müşahidəçi olmuş Rəhimov Elxan Novruz oğlu, Soltanova Nigar Fikrət qızı, Hüseynova Gülnarə Abbas qızı, Babazadə Murad Babək oğlu, Hüseynova Elnarə Arif qızı və Məmmədov İlyas Ərəb oğlunun verdikləri izahatlardan Mərdəkan bələdiyyəsinə seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolun dərhal tərtib edilərək, ictimailəşdirildiyi təsdiq olunmuşdur. Eyni zamanda 13 saylı Əzizbəyov birinci seçki dairəsi dairə seçki komissiyasının sədri M.S.Balaqardaşovun və komissiya üzvlərinin izahatında müraciət edən şəxslərin adından Mərdəkan bələdiyyəsinə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın” 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. Vətəndaş Hüseynov Nazim Hüseyn oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 183 və 323 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat müddətində dərc olunsun və surəti aidiyyəti şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov